

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 29 (20.930)

*14 fevral 2014-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Fevralın 13-də Bakıda Azərbaycan Milli Konservatoriyasının yeni inzibati-tədris kompleksinin açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.

Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısına məlumat verən Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Səyavuş Kərimi bildirdi ki, binada tədrisin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılmışdır. Burada xalqımızın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin Azərbaycanda mədəniyyətin inkişafı ilə bağlı həyata keçirdikləri işləri əks etdirən muzey yaradılmışdır. Muzeydə həm ulu öndərin, həm də dövlətimizin başçısının müxtəlif mədəniyyət tədbirlərində iştirakından və incəsənət xadimləri ilə görüşlərindən çəkilmiş fotoşəkillərə geniş yer verilmişdir.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Milli Konservatoriyanın müəllim heyəti, görkəmli mədəniyyət xadimləri ilə görüşdülər.

Dövlətimizin başçısı Azərbaycan Milli Konservatoriyasının yeni binasının açılışı münasibətilə təbriklərini çatdırdı.

Xalq artistləri Əlibaba Məmmədov, Arif Babayev, Ağaxan Abdullayev Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya milli mədəniyyətin inkişafına göstərdikləri diqqət və qayğıya görə minnətdarlıq etdilər.

Tədbirin sonunda Prezident İlham Əliyevə milli musiqi alətlərimiz olan tar və kamança hədiyyə olundu. Mərasimdə muğam səsləndi.

Sonra xatirə şəkli çəkdirildi.

Sonda Prezident İlham Əliyevə Milli Konservatoriyanın maketi təqdim olundu, gələcəkdə burada görüləcək işlər barədə məlumat verildi.

# Uzunoba Su Anbarında yenidənqurma işləri aparılır





Muxtar respublikada yeni hidrotexniki qurğuların tikilməsi və mövcud olanlarda yenidənqurma işlərinin aparılması diqqət mərkəzində saxlanılır. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq, Uzunoba Su Anbarında da yenidənqurma işləri aparılır.

Fevralın 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Uzunoba Su Anbarına gəlmiş, görülən işlərlə tanış olmuşdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat vermişdir ki, ötən əsrin 60-cı illərindən istismar olunan su anbarında 2013-cü ilin oktyabr ayından başlayaraq yenidənqurma işləri aparılır. Su anbarının bəndinin uzunluğu 1868 metr, hündürlüyü isə 17,7 metrdir. Bu günə qədər 12 min kvadratmetr sahədə betonlama işləri aparılmışdır. Ümumi tutumu 8 milyon kubmetr olacaq su anbarında suburaxıcı qapılar da yenidən qurulacaq, drenaj sularını yığmaq üçün 1530 metr uzunluğunda qapalı xətt çəkiləcək, bəndin üzərində işıqlandırma sistemləri quraşdırılacaqdır.

Həyata keçirilən tədbirlər su anbarının istismar müddətini artırmaqla yanaşı, ərazidə şoranlaşmanın qarşısını alacaq və yeni torpaq sahələri əkin dövriyyəsinə daxil ediləcəkdir. Bununla yanaşı, Uzunoba Su Anbarında istirahət guşələri və çimərlik istifadəyə veriləcək, su idman oyunları ilə məşğul olmaq üçün lazımi şərait yaradılacaqdır.

Ali Məclisin Sədri işlərin keyfiyyətlə aparılması barədə tapşırıqlar vermişdir.

# Kəngərli rayonunda suvarma tədbirləri yaxşılaşdırılır

Fevralın 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri Vasif Talıbov "Kəngərli rayonunda irriqasiya sistemlərinin təkmilləşdirilməsi" layihəsi çərçivəsində görülən işlərlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, son illər muxtar respublikada mövcud su potensialından səmərəli istifadə nəticəsində yeni torpaq sahələri əkin dövriyyəsinə qatılmış, ərazilərin su təminatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılmışdır. Hər il hidrotexniki qurğularda təmir-bərpa işləri aparılır, yeni su xətləri çəkilir. Hazırda Kəngərli rayonunun Yeni Kərki, Xıncab, Yenikənd və Böyükdüz kəndlərinin torpaq sahələrinin suvarma suyu ilə təmin olunması məqsədilə Uzunoba Su Anbarından qidalanan 720 millimetrlik qoşa boru xətləri çəkilir.



Boru xətlərinin ümumi uzunluğu 32,4 kilometr olacaqdır. Bu günə qədər 5,6 kilometr məsafədə boru xətlərinin çəkilişi başa çatdırılmışdır. Boru xətlərinin çəkilişindən sonra Kəngərli rayonu ərazisində yeni nasos stansiyası da tikiləcək, su sərfi saatda 1200 kubmetr olan 3 ədəd aqreqat quraşdırılacaqdır. Eyni zamanda nasos stansiyasından 8,7 kilometr uzunluğunda təzyiqli boru xətti çəkiləcək və tutumu 250 kubmetr olan suqəbuledici inşa ediləcəkdir.

Layihəyə uyğun olaraq, ərazidə 15 kilometr paylayıcı boru xətlərinin, o cümlədən 120 kilometr uzunluğunda torpaq kanal və arxların çəkilməsi də nəzərdə tutulmuşdur. Bu işlər həyata keçirildikdən sonra Kəngərli rayonunda 4 min hektar yeni torpaq sahəsi əkin dövriyyəsinə qatılacaq və əkin sahələrində suvarma tədbirləri daha da yaxşılaşdırılacaqdır.

Ali Məclisin Sədri layihəyə uyğun olaraq, tikinti işlərinin vaxtında və keyfiyyətlə başa çatdırılması, əkin dövriyyəsinə daxil edilən torpaq sahələrinin xəritələşdirilərək payızlıq taxıl əkininə hazırlanması barədə aidiyyəti orqanlara tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# 2013-cü ilin yekunları müzakirə edilir

*Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində keçirilən və 2013-cü ilin yekunları, 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclasını Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov açmışdır. Sonra komitənin sədri Cəfər Muxtarov məruzə ilə çıxış etmişdir.*



Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası blokada şəraitində olmasına baxmayaraq, mövcud potensialdan səmərəli istifadə etməklə qədim diyarımız inkişafın yeni mərhələsinə qədəm qoymuşdur. Azərbaycan Respublikasının 22 illik müstəqilliyinin son 18 ilində Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə olduğu kimi, tikinti sektorunda da böyük uğurlar qazanılmışdır. Əvvəlki illərdə olduğu kimi, 2013-cü ildə də tikinti-quruculuq tədbirləri həyatımızın bütün sahələrini əhatə etmiş, ənənəvi olaraq belə tədbirlər kənd yaşayış məntəqələrində daha çox həyata keçirilmişdir. Təhsil, mədəniyyət, səhiyyə, rabitə və digər müəssisələr üçün müasir iş şəraitinə malik yeni obyektlər istifadəyə verilmiş, yollar salınmış, körpülər tikilmiş, əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində xeyli iş görülmüşdür.

Məruzə ətrafında müzakirələrdə komitənin Naxçıvan şəhər, Culfa və Babək rayonları idarələrinin rəisləri Novruz Qalayevin, Tahir Əliyevin, Rəvayət İmanovun çıxışları olmuşdur.

Kollegiya iclasında çıxış edən Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov bildirmişdir ki, muxtar respublikada aparılan dövlət investisiya siyasətinin başlıca məqsədi kapital qoyuluşlarının sosial və iqtisadi cəhətdən zəruri olan layihələrə yönəldilməsini təmin etməkdir. Bu baxımdan 2013-cü ildə bütün maliyyə mənbələri hesabına əsas kapitala investisiya qoyuluşlarının həcmi 1 milyard 38 milyon manat təşkil etmişdir. Bəhs olunan dövr ərzində əsas kapitala investisiya qoyuluşlarının 89 faizə qədəri və ya 919 milyon manatdan çoxu tikinti-quraşdırma işlərinə sərf olunmuş, 592 obyekt tikilərək, əsaslı bərpa olunaraq və ya yenidən qurularaq istifadəyə verilmişdir. Belə ki, il ərzində 35 inzibati bina, 20 kənd mərkəzi, 21 xidmət mərkəzi tikilmiş, yaxud yenidən qurulmuş, 3 yaşayış binasının tikintisi, 5 yaşayış binasının yenidən qurulması, 16 yaşayış binasının əsaslı təmiri, 5 yaşayış binasının isə təmiri başa çatdırılmışdır. Bu dövrdə əhali tərəfindən tikilən mənzillərin sahəsi 358 min kvadratmetrdən çox olmuş, 2 soyuducu anbar istifadəyə verilmişdir. 164 kilometr uzunluğunda yol salınmış və ya bərpa edilmiş, 21 körpü tikilərək, 12 körpü isə təmir olunaraq, Arpaçay Su Elektrik Stansiyası qurularaq istifadəyə verilmişdir. 12 qazanxananın, 9 min 164 şagird yerlik 25 tam orta məktəb, 22 səhiyyə müəssisəsi üçün binaların tikilərək, yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilməsi də 2013-cü ilin quruculuq tədbirləri sırasındadır.

Bildirilmişdir ki, əldə edilmiş müsbət nəticələrlə yanaşı, muxtar respublikada fəaliyyət göstərən tikinti təşkilatlarının işində bəzi nöqsanlar da vardır.

Belə ki, 2013-cü ildə muxtar respublikada tikinti işlərinin həcminin əvvəlki ilə nisbətən artıq olmasından istifadə edən bəzi tikinti təşkilatları əlavə iş almaq xatirinə tələskənliyə yol vermiş, bir çox hallarda keyfiyyət amili unudulmuşdur. Bu il yanvar ayının 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilmiş müşavirədə Ali Məclisin Sədri belə hallara iradını bildirərək demişdir: ***“Bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrində ən müasir tələblərə cavab verən sosial və inzibati obyektlər tikilir, yollar çəkilir, körpülər salınır. Bir çox hallarda əlavə iş almaq xatirinə tikinti təşkilatları tələskənliyə yol verir, keyfiyyət amilinə yetərincə diqqət yetirmirlər. Bu səbəbdən istifadəyə verildikdən sonra tikililərdə təmirə ehtiyac yaranır. Bununla bağlı son vaxtlar muxtar respublikanın qəsəbə və kəndlərində aparılmış reydlər zamanı xeyli sayda faktlar aşkar olunmuşdur. Qeyd olunan nöqsanlar bir daha göstərir ki, tikintidə keyfiyyətə lazımi nəzarət yoxdur”.***

Bildirilmişdir ki, podratçı təşkilatların işinə ciddi nəzarət olunmalı, tikinti normativlərinə əməl edilməsi diqqətdə saxlanılmalı və nəzarət mexanizminin gücləndirilməsi üçün müvafiq tədbirlər görülməlidir. Hər hansı tikinti obyektinin layihə-smeta sənədlərinin hazırlanmasından tutmuş son tamamlama işlərinə qədər ayrılan vəsaitin istifadəsinə nəzarət artırılmalı, lüzumsuz xərclərə yol verilməməlidir. Bu işdə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin üzərinə böyük məsuliyyət düşür.

Asəf Məmmədov əminliyini bildirmişdir ki, muxtar respublikada həyata keçirilən tikinti-quruculuq işlərində layiqincə iştirak etmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollektivi işində ciddi dönüş yaradaraq qeyd edilən nöqsanların gələcəkdə təkrarlanmaması üçün işə daha diqqətlə yanaşacaq, Ali Məclis Sədrinin komitə qarşısında qoyduğu konkret tapşırıqlar, “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”da, eləcə də muxtar respublikada cari il üçün nəzərdə tutulan və qarşıya qoyulan vəzifələr müvəffəqiyyətlə icra olunacaq, “Muxtariyyət ili”ni uğurla başa vurmaq üçün bütün səylər səfərbər ediləcəkdir.

* * *



*Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyində ötən il görülmüş işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilmişdir. Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov açaraq məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, 2013-cü ilin Naxçıvan Muxtar Respublikasında “Heydər Əliyev ili” elan edilməsi ilə bağlı Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müxtəlif mövzularda 200-dən çox tədbir keçirilmişdir.*

Muxtar respublikada həyata keçirilən quruculuq tədbirlərindən mədəniyyət sahəsinə də pay düşdüyünü deyən nazir bildirmişdir ki, 2013-cü ildə Naxçıvan Şəhər Ə.Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin binası yenidən qurulmuş, 3 nömrəli Uşaq Musiqi Məktəbi üçün yeni bina tikilmişdir.

Naxçıvan Dövlət Uşaq Filarmoniyası uşaqların ifaçılıq səviyyəsinin yüksəldilməsində, xüsusi istedada malik uşaqların aşkara çıxarılmasında əhəmiyyətli rol oynamaqdadır. Filarmoniyanın musiqi kollektivlərinin repertuarı xalq yaradıcılığı nümunələri ilə daha da zənginləşdirilir.

“2013-cü ildə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında əhaliyə göstərilən teatr xidməti sahəsində də müəyyən işlər görülmüşdür”, – deyən S.İbrahimov vurğulamışdır ki, ötən ilin fevral ayında Məmməd Cəfər Cəfərovun “Mirzə Cəlil taleyi”, mart ayında görkəmli rus dramaturqu A.P.Çexovun “Ayı” və “Təklif” vodevilləri əsasında hazırlanmış “Russayağı evlənmə” tamaşaları səhnəyə qoyulmuşdur. Aprelin 15-də isə görkəmli şair-dramaturq İslam Səfərlinin 90 illik yubileyi ilə əlaqədar ədibin “Göz həkimi” pyesi yeni quruluşda teatrsevərlərə təqdim olunmuşdur. İyun ayında ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi və Milli Qurtuluş Günü münasibətilə Adil Babayevin “Koroğlunun Çənlibelə qayıdışı” tamaşası səhnəyə qoyulmuşdur. Qeyd olunmuşdur ki, teatr truppası ötən ilin noyabr ayında dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun “Gün var, əsrə bərabər” romanının motivləri əsasında hazırlanmış “Manqurt” tamaşası ilə teatrsevərlərin görüşünə gəlmişdir.

Kollegiya iclasında muxtar respublikanın xalq teatrlarının fəaliyyətində də bəhs edilmiş, Babək Rayon Xalq Teatrının səhnəsində Səttar Axundovun “Məhəbbət nişanəsi”, Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrının səhnəsində Cahangir Aslanoğlunun “Qısqanc ər”, Şahbuz Rayon Xalq Teatrının səhnəsində isə Zülfüqar Hacıbəyovun “Evlikən subay” əsərlərinin səhnələşdirildiyi bildirilmişdir. Bununla bərabər, bəzi xalq teatrlarına istedadlı gənclərin cəlb edilməsi və onların repertuarlarının zənginləşməsi üçün görülən işlərin arzuolunan səviyyədə olmadığı vurğulanmışdır.

Ötən il Naxçıvan Dövlət Xalça Muzeyinin yenidənqurmadan sonra “Naxçıvan xalçaçıları” kitabının, “Azərbaycan xalçaları: Naxçıvan qrupu” jurnalının, “Naxçıvan xalçaları” sənədli filminin və muzeyin internet saytının təqdimat mərasimi keçirilmişdir.

2013-cü ildə Bəhruz Kəngərli Muzeyinin binasının əsaslı yenidənqurmadan sonra açılışı olmuş, “Gəmiqaya” Tarix-Bədii Qoruğu üçün inzibati bina və muzey inşa edilmiş, Şahbuz rayonunda Ağbulaq İstirahət Mərkəzi istifadəyə verilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış etmişdir.

* * *

*“Naxçıvanqaz” İstehsalat Birliyində də 2013-cü ilin yekunlarına və qarşıda duran vəzifələrə dair yığıncaq keçirilmişdir. Yığıncaqda birliyin direktoru Səxavət Abbasov məruzə ilə çıxış etmişdir.*

Qeyd olunmuşdur ki, muxtar respublikada, ümumilikdə, 1 yanvar 2014-cü il tarixə 82 min 753 istehlakçı təbii qazdan istifadə edib ki, onlardan 1176 abonent, 121 müəssisə ötən il təbii qazla təmin olunmuşdur.

2013-cü il Naxçıvan Muxtar Respublikasının qaz təsərrüfatı üçün də uğurlu illərdən olmuşdur. Belə ki, mövcud infrastruktur yenilənmiş, iri layihələrin icrası tamamlanmış, yeni xətlər istismara verilmişdir. Ötən il 27 kilometrlik ortatəzyiqli Naxçıvan-Şahbuz xətti, 81,6 kilometrlik yüksəktəzyiqli Naxçıvan-Sədərək xətti istifadəyə verilmişdir. Qaz kəmərlərinin yenilənməsi, xətlərdə təbii qaz ehtiyatının saxlanılması muxtar respublikanın təbii qaz təminatı ilə bağlı atılan mühüm addımlardandır.



Vurğulanmışdır ki, ötən il qaz təsərrüfatında istismarda olan magistral, daşıyıcı və paylayıcı qaz kəmərlərinə, eləcə də onlar üzərindəki kranlara, siyirtmələrə və qaztənzimləyici şkaflara müntəzəm olaraq texniki baxış keçirilmiş, aşkar edilmiş nöqsanlar aradan qaldırılmışdır. İstehlakçılara verilən təbii qazın təzyiqinə hər ay texnoloji rejim tətbiq edilmiş və ölçü qovşaqlarında nəzarət işi diqqətdə saxlanılmışdır.

Abonentlərin təhlükəsizliyi də diqqət mərkəzində saxlanılmış, baş verə biləcək hər hansı bir qəzanın vaxtında aradan qaldırılması üçün şəhər və rayon Qaz İstismarı idarələrində qəza dispetçer xidmətlərinin 24 saat fəaliyyəti təmin edilmişdir.

Təbii qazın itkisiz olaraq yerlərə çatdırılması, israfçılığın qarşısının alınması və sərf olunan qazın dəyərinin vaxtında ödənilməsi ilə əlaqədar tədbirlər davam etdirilmiş, istismarda olan qaz sayğaclarına mütəmadi olaraq baxışlar keçirilmiş, cari təmirə ehtiyacı olan sayğaclar təmir olunmuş, 2728 ədəd sayğac yenisi ilə əvəzlənmişdir.

“Sərf olunan qazın dəyərinin vaxtında ödənilməsi də diqqət mərkəzində saxlanılmışdır”, – deyən birliyin direktoru bildirmişdir ki, 2013-cü ildə enerji istehsal edən müəssisələr nəzərə alınmadan istehlak olunan 151 milyon 760 min 906 kubmetr qazın satışından 15 milyon 186 min 441 manat vəsait toplanmış, ödəmə 100 faiz olmuşdur. Əhali abunəçiləri üzrə istehlak olunan 76 milyon 976 min 414 kubmetr qazın satışından toplanan vəsait 7 milyon 705 min 792 manata çatmışdır ki, bu da 100 faiz ödəmə deməkdir.

İclasda işdə buraxılan nöqsan və çatışmazlıqlara da toxunulmuş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri Rəfael Babayev çıxış etmişdir.

*Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyində də 2013-cü ilin yekunlarına həsr olunmuş kollegiya iclası keçirilmişdir. İclasda agentliyin Baş direktoru Yasin Səfərov məruzə ilə çıxış edərək bildirmişdir ki, muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən kompleks tədbirlər ötən il də davam etdirilmiş, Şərur rayonu ərazisində gücü 20,5 meqavat olan Arpaçay Su Elektrik Stansiyası istismara verilmişdir. Burada istehsal olunan elektrik enerjisi 30 meqavolt-amper güclü transformator yarımstansiyası və 110 kilovoltluq elektrik verilişi xətti ilə muxtar respublikanın elektrik şəbəkələrinə ötürülür.*



Ötən il ərzində 110/35/10 kv “Ordubad” yarımstansiyası yeni avadanlıqlarla təchiz edilməklə daha münasib sahəyə köçürülmüşdür. Həmin yarımstansiyada ümumi gücü 41 mva olan 2 ədəd güc transformatoru, 110 kilovoltluq kommutasiya aparatları – eleqaz açarları, ayırıcılar, gərginlik və cərəyan ölçü transformatorları, 35 və 10 kilovoltluq müasir hücrələr və digər zəruri elektrik avadanlıqları quraşdırılmışdır.

Şərur rayonu ərazisində avadanlıqların uzun müddət istismar edildiyindən sıradan çıxmış 35/10 kilovoltluq “Xanlıqlar” transformator yarımstansiyasının yaxınlığında 4000 kilovolt-amper gücü yeni yarımstansiya tikilib quraşdırılmışdır.

Qeyd olunmuşdur ki, 2013-cü ildə muxtar respublikanın elektrik şəbəkələrinə 804 milyon 444 min 458 kilovat-saat elektrik enerjisi daxil olmuşdur. Bunun 62 milyon 620 min kilovat-saatı İran İslam Respublikasından, 228 min 420 kilovat-saatı Türkiyə Respublikasından alınmış, 8 milyon 65 min 720 kilovat-saatı Araz Su Elektrik Stansiyasında, 538 milyon 103 min kilovat-saatı Naxçıvan Modul Elektrik Stansiyasında, 610 min kilovat-saatı Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında, 54 milyon 282 min 200 kilovat-saatı Biləv Su Elektrik Stansiyasında, 5 milyon 619 min 767 kilovat-saatı Arpaçay Su Elektrik Stansiyasında, 11 milyon 745 min 959 kilovat-saatı Heydər Əliyev Su Anbarı üzərindəki SES-də istehsal edilib elektrik şəbəkələrinə verilmişdir. Ötən il Türkiyə Respublikasına 276 milyon 671 min 680 kilovat-saat, İran İslam Respublikasına 61 milyon 834 min kilovat-saat elektrik enerjisi ötürülmüşdür.

Vurğulanmışdır ki, 2013-cü ildə muxtar respublikanın ayrı-ayrı yaşayış məntəqələrində, ümumilikdə, 39 ədəd yeni transformator yarımstansiyası quraşdırılmış, 87,5 kilometr uzunluqda yeni 10 və 0,4 kilovoltluq elektrik verilişi xətləri çəkilmişdir.

2013-cü ildə 8,5 faiz texniki itki nəzərə alınmaqla işlədicilərə dəyəri 23791,08 min manat təşkil edən 396518 min kilovat-saat elektrik enerjisi ötürülmüşdür. Elektrik enerjisi satışından 23815,1 min manat vəsait toplanmış, enerjinin dəyərinin ödənilməsi 100,1 faiz olmuşdur.

Kollegiya iclasında işdə buraxılan nöqsanlar da ətraflı təhlil olunmuş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri Rəfael Babayev çıxış etmişdir.

**Xəbərlər şöbəsi**

# İordaniyanın "Əl-Uruba" xəbər portalı Naxçıvan haqqında

**Sultan Əl-Hattab İordaniyanın məşhur jurnalistlərindən biridir. O, 2011-ci ildə Azərbaycan haqqında "Azərbaycan, Xəzərin gəlini, neft səltənəti" adlı kitab yazmışdır.**

**2014-cü il fevralın 9-da İordaniyanın "Əl-Uruba" xəbər portalında jurnalist Sultan Əl-Hattabın Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr edilmiş "Naxçıvan izolyasiyadan çıxaraq müasir sivilizasiyada öz yerini tutmuşdur" adlı məqaləsi dərc olunmuşdur. Qəzetimizin bugünkü nömrəsində həmin məqalə ilə oxucuları tanış edirik.**

## Naxçıvan izolyasiyadan çıxaraq müasir sivilizasiyada öz yerini tutmuşdur

**Sultan Əl-Hattab**

Məni Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə ayrılmaz bağlar bağlayıb, çünki mənim 32 illik həyat yoldaşım məhz bu qədim diyarın yetirməsidir. Mən onunla İordaniyada tanış olmuşam, bu hadisə o zaman Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin tələbəsi kimi İordaniyada təcrübə keçməyə gələrkən baş vermişdir. SSRİ zamanı Naxçıvana əcnəbilərin gediş-gəlişi çox mürəkkəb və çətin bir proses olmasına baxmayaraq, mən Naxçıvana getməyə nail oldum. Sovet imperiyası dağıldıqdan və Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra bu qədim türk torpağını daha sərbəst şəkildə ziyarət edə bildim.

Onu da qeyd etmək istərdim ki, İran, Türkiyə və Ermənistanla həmsərhəd olan Naxçıvan 1988-ci ildən sonra ermənilərin apardığı işğalçı siyasət nəticəsində blokada vəziyyətinə düşmüş, Azərbaycanın digər bölgələri ilə quru yolla əlaqələri kəsilmişdir. Mən 90-cı illərin sonunda Naxçıvanda oldum və Ali Məclisin Sədri cənab Vasif Talıbovla görüşdüm. Şahidi olduğum bu idi ki, blokadaya baxmayaraq, Naxçıvanın istər adi vətəndaşı, istərsə də rəhbərliyi çox böyük əzmlə ölkənin inkişafı üçün əllərindən gələni əsirgəmirlər.

Naxçıvanın 400 mindən çox əhalisi var. Və bu əhali Naxçıvan şəhəri, Babək, Culfa, Ordubad, Kəngərli, Şahbuz, Şərur və Sədərək rayonlarında müxtəlif sıxlıqlarla məskunlaşmışdır. Naxçıvan haqqında mən özümün 2011-ci ildə çapdan çıxan "Azərbaycan, Xəzərin gəlini, neft səltənəti" adlı kitabımda da ətraflı bəhs etmiş və bu qədim diyarın tarixi, mədəniyyəti, incəsənəti ilə bağlı məlumatlar yerləşdirmişəm. Qeyd edilən kitab ərəb dilində nəşr edilərək bütün Yaxın Şərq ölkələrinə paylanmışdır.

Coğrafi baxımdan Naxçıvan strateji yerdə yerləşir, Böyük İpək Yolunun keçdiyi bir məntəqə hesab olunur. Daşduz, nadir metallar, müalicəvi əhəmiyyətli mineral su ehtiyatına sahib olan Naxçıvanın təbiəti də gözoxşayan və füsunkar bir təəssürat bağışlayır.

Naxçıvan IX əsrdə ərəb xilafətinə qarşı ən böyük hərəkat sayılan Xürrəmilər hərəkatının mərkəzlərindən biri olmuş, bir müddət Səlcuq Türk dövlətinin tərkibində olduqdan sonra XII əsrdə Atabəy-Eldənizlər dövlətinin paytaxtı olaraq özünün intibah dövrünə qədəm qoymuşdur. Sonrakı dövrlərdə Qızıl Orda, Səfəvi, Osmanlı imperiyasının tərkibində olan Naxçıvan xüsusilə Səfəvi-Osmanlı müharibəsi zamanı çox böyük dağıntılara, talanlara məruz qalmışdır. 1732-ci il Kirmanşah sülh müqaviləsinin şərtlərinə istinadən, Naxçıvan Osmanlı əsarətinə keçmişdir. Nadir şah tərəfindən Osmanlılardan geri alınan Naxçıvan XVIII əsrin ortalarından etibarən, əsasən, Kəngərli tayfalarının qurduğu Naxçıvan xanlığı kimi öz mövcudluğunu qorumuşdur. Çar Rusiyası zamanında Naxçıvan etnik diskriminasiyaya məruz qalmış, XIX əsrin sonu və XX əsrin ilk onilliyində əhalinin etnik tərkibinin dəyişdirilməsi (erməniləşdirilməsi) istiqamətində böyük köçürmə planı ilə üz-üzə qalmışdır.

Çar Rusiyasının süqutundan sonra erməni cəlladı Andranikin hücumlarının qarşısının alınması və digər strateji işlərin həyata keçirilməsi üçün 1918-ci ilin noyabrında Naxçıvanda Araz-Türk Respublikası yaradıldı və bu, 1919-cu ilin martına qədər mövcud oldu. I Dünya müharibəsinin nəticəsi olaraq, Naxçıvan bir müddət general-qubernatorluq kimi Britaniya, sonra Amerika idarəsi altında olmuşdur.

1920-ci ildə Azərbaycan öz müstəqilliyini itirdikdən sonra Naxçıvanda da sovet idarəçiliyi bərqərar oldu. Naxçıvan tarixinin bu dövrünü xüsusən çox çətin və həyati əhəmiyyətli qərarların qəbul olunduğu dövr kimi qiymətləndirə bilərik. Belə ki, himayədarlarının köməyinə arxalanan ermənilər Naxçıvanı Ermənistana birləşdirmək üçün, sözün həqiqi mənasında, dəridən-qabıqdan çıxırdılar. Zəngəzurun Ermənistana verilməsi nəticəsində Azərbaycandan ayrı düşən Naxçıvan öz varlığını qorumaq üçün böyük mübarizələr aparmalı oldu. Naxçıvanı Ermənistana birləşdirmək istəyən Sovet hakimiyyəti 1921-ci ildə yerli əhali arasında məsələ ilə əlaqədar referendum keçirdi və əhalinin 90 faizi Naxçıvanın Azərbaycanın tərkibində qalmasına səs verdi.

1921-ci ilin mart və oktyabr aylarında Rusiya, Gürcüstan, Azərbaycan, Ermənistan və Türkiyə arasında imzalanan Moskva və Qars müqavilələrini Naxçıvanın qorunması yolunda ən böyük diplomatik uğur hesab etmək olar. Məhz bu müqavilələrə əsasən, iştirakçı dövlətlər öhdəliklər götürərək Naxçıvanın ərazi bütövlüyünü və mövcudluğunu tanımış oldular. Bu uğur sonrakı mərhələdə, yəni 1924-cü il fevral ayının 9-da Naxçıvanın Azərbaycanın tərkibində Muxtar Sovet Sosialist Respublika kimi özünü idarəetmə statusu əldə etməsinə gətirib çıxardı.

Sovet İttifaqının süqutu ərəfəsində fəallaşan ermənilər Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarında olduğu kimi, Naxçıvanda da işğalçı müharibəyə başladı. Kərki kəndi istisna olmaqla, Naxçıvan camaatı bir qarış torpağını belə, düşmənə təslim etməmiş, bu yolda yüzlərlə şəhid vermişdir.

Sovet rejiminə qarşı Azərbaycanda ilk dəfə olaraq məhz Naxçıvanda böyük etiraz səsləri ucalmış, Naxçıvan Ali Soveti SSRİ-nin tərkibindən çıxmasını açıq şəkildə bəyan etmişdir.

Heydər Əliyev 1990-cı il yanvar hadisələrindən sonra Moskvadan öz doğma vətəni olan Naxçıvana qayıtmış və onun rəhbərliyi altında Azərbaycan üçün taleyüklü məsələlərin həllində Naxçıvan əhalisi birlikdə fəaliyyət göstərmişdir. Məhz 17 noyabr 1990-cı il tarixdə ilk dəfə olaraq Naxçıvan Ali Məclisinin qərarı ilə muxtar qurumun adından "Sovet Sosialist" sözləri çıxarılmış və Azərbaycanın üçrəngli bayrağı dalğalandırılmışdır.

Naxçıvan Azərbaycanın müstəqillik tarixinin bütün dövrlərində olduğu kimi, bu gün də inkişafı, siyasi loyallığı, milli-mənəvi dəyərlərinə görə nümunəvi olmuşdur. Bu gün Naxçıvana səyahət edən hər kəs bu regionda olan tərəqqini gördükdən sonra "blokada" sözünün yalnız söz olaraq qaldığının əyani şahidi olar.

*Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi münasibətilə Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbdə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə ekoloji seminar keçirilmişdir. Seminarı məktəbin direktoru Aynur Mustafayeva açmışdır.*

# Ekoloji seminar keçirilmişdir

Tədbirdə "Naxçıvan Muxtar Respublikasının dünəni və bu günü" və "Naxçıvanın təbiəti" adlı slaydlar nümayiş etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Elçin Kazımov "Naxçıvan təbiətinin bu günü" mövzusunda çıxış etmişdir. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikasında ekoloji tarazlığın qorunub saxlanılması bütün dövrlərdə aktual olsa da, ötən əsrin sonlarında, xüsusilə müstəqilliyimizin ilk illərində bu sahədə vəziyyət ürəkaçan olmamışdır. Blokada vəziyyətində mövcudluğunu davam etdirən muxtar respublikada məlum səbəblər üzündən yaşıllıqlar məhv edilmiş, ağaclar kəsilmiş, meşə sahələri bərbad vəziyyətə düşmüşdür. Ancaq bu vəziyyət uzun sürməmiş, bu sahədə məqsədyönlü tədbirlər həyata keçirilməyə başlanmışdır. Son 18 ildə davamlı olaraq həyata keçirilən ekoloji tədbirlər nəticəsində muxtar respublikada yaşıllıqların sahəsi 10 dəfədən çox artmışdır. Görülən işlər çərçivəsində ətraf mühitin mühafizəsi, təmiz ekoloji mühitin yaradılması diqqət mərkəzində saxlanılmış, bu iş ümumxalq işinə çevrilmişdir.

Qeyd olunmuşdur ki, əlverişli mühitin yaradılmasında ən mühüm amillərdən biri də meşə ehtiyatlarının qorunması, bərpası və artırılmasıdır. Təqdirolunası haldır ki, görülən işlər təkcə əkinəyararlı və münbit ərazilərdə deyil, eroziyaya uğramış, şoranlaşmış və digər səbəblərdən yararsız vəziyyətə düşmüş torpaqlarda da davam etdirilir. Bunun nəticəsidir ki, regionda fauna və flora növlərinin də sayı artmışdır. Bu gün cəmiyyətimizin qarşısında duran əsas vəzifələrdən biri ətraf mühiti qorumaq və ondan səmərəli istifadə etməkdir. Hər kəs bu işə öz töhfəsini verməli, təbiətə sevgi ilə yanaşmağı özünün mənəvi borcu hesab etməlidir.

Sonra Şahbuz Dövlət Təbiət Qoruğunun direktoru Mürsəl Seyidov, Naxçıvan Şəhər Ekoloji Tərbiyə Mərkəzinin müəllimi Maral Həsənova çıxış etmişlər.

Sonda məktəbdə təşkil edilmiş ekoloji sərgiyə baxış olmuşdur.

**Səbuhi HƏSƏNOV**

# İndiki yollar adama nağıl kimi gəlir

*"Oğlumun nağılları və yaxud bizim həqiqətlərimiz" silsiləsindən dördüncü nağıl*

***Kənddən yenicə qayıtmışdıq. Hər dəfə evə çatanacan yolda yuxulayan oğlum bu dəfə nədənsə oyaq idi. Heç birimizin fikrinə varmadığımız bu məqamı oğlum öz uşaq diqqətcilliyi ilə bizə xatırladanda, doğrusu, hamımız təəccübləndik. Təəccübümüzü görən oğlum bunu izah etmək üçün öz səbəbini də müəyyənləşdirmişdi:***

– Bilirsiz, bu dəfə niyə yatmamışam? Axı hər dəfə kəndə gedibgələndə yollar maşını o qədər atıbtuturdu ki, elə bil beşikdə yırğalayırdı, adamı da yuxu tuturdu onda. Amma bu dəfə kəndə gedəndə də, gələndə də heç yuxum gəlmədi. Çünki yol çox qəşəng olmuşdu.

* * *

Evə çatanda hava qaralmışdı. İstirahət günü bitir, sabah növbəti iş həftəsi başlayırdı. Tez yatmaq lazım idi. "Bu dəfə yolda yatmadım, deməli, bu gün də nağıl danışmalı olacaqsan, dədə", – deyib oğlum yataq otağına yollandı. Nağılın budəfəki mövzusunu da oğlum istəmədən vermişdi. Ona bu dəfə yollardan danışacağam. Oğlum yaşda olarkən getdiyim və bu yaşında oğlumun getdiyi yollardan danışacağam. Qısacası, yolların nağılını danışacağam.

* * *

Bir vaxt vardı, heç nə yox idi. Heç nəyin olmadığı zamanlarda balaca bir uşağın getdiyi və tanıdığı ilk yol – birinci yol evlərindən məktəblərinə kimi olan yol oldu. İllər keçdikcə o balacanın getdiyi ünvanlar kimi, keçdiyi yollar da artdı, tanıdığı yerlər də.

Bu həyatda dəyişilməz bir qanun var ki, gedəcəyin hər yerə bizi yollar aparır. Oxuduğumuz, dinlədiyimiz nağıllarda, dastanlarda yolları ilana bənzədiblər – ilan kimi qıvrılaraq dağların, təpələrin qoynundan keçib gedib yollar. İlan kimi qıvrılaraq




keçən yollar elə nağıllarda, dastanlarda qaldı. İndi düzlüklə yaşadığımız həyatımızda keçdiyimiz yollar da dümdüzdür.

– Oğlum, bir vaxtlar sənin kimi balaca bir uşaq öz kəndlərindən qonşu kəndlərə gedəndə yolların dərətəpəsi, əyri-üyrüsü, kələ-kötürü onu düşündürmürdü. Düşündüyü bir şey vardısa, o da ünvana tez çatmaq idi.

Həmin uşağın xatirələrində nisbətən uzaq ünvanlar rayon mərkəzi, bir neçə aydan bir getdikləri məşhur Əshabi-Kəhf ziyarətgahı idi.

– Dədə, səninlə getdiyimiz Əshabi-Kəhf? Şəhərdən dayımın maşını ilə 10-15 dəqiqəyə getdiyimiz Əshabi-Kəhf?

– Bəli, oğlum, həmin Əshabi-Kəhf. Amma o vaxt o balaca həmin yolu sənin kimi 10-15 dəqiqəyə gedə bilmirdi. Çünki nə o yol elə düz, o cür asfalt idi, nə də yollar kələ-kötür olduğundan balaca maşınlar ora gedə bilirdi.

Bir vaxtlar müqəddəs ziyarətgahımıza gedib çatmaq üçün heç təkərizlərinin olmadığı dərəli, təpəli yolları qət etməli olurduq. Yük maşınlarının arxasında böyük bir ailə, qonum-qonşular yığılıb getdikləri o yolda maşın bir neçə dəfə dayanmalı olurdu, bu yollara tab gətirmirdi. Amma indi istənilən maşın o yoldan bir göz qırpımında asfalt üzərində şütüyərək keçir.

Oğlum, təkcə Əshabi-Kəhfə gedən yol deyil, şəhərlərdən kəndlərə gedən yollar da ürəkaçan deyildi. Heç paytaxt şəhərimiz Naxçıvanın mərkəzi küçələrindən tutmuş nisbətən balaca küçələrində də, şəhərkənarı məhəllələrdə də yollar könül oxşamırdı. Hələ şəhərdən kəndlərə, rayonlara gedən yolları demirəm. Ayrı-ayrı kəndiçi yollardan isə, ümumiyyətlə, danışmağa dəyməzdi. Amma indi Naxçıvan şəhərinin mərkəzi yolları, şəhərkənarı məhəllələrin, ara küçələrin yolları gözə xoş gəlir. Naxçıvan şəhərindən Sədərəyə, Türkiyə sərhədinə qədər, Culfaya, İran sərhədinə qədər, cənnət bölgəmiz olan Batabata qədər, bir vaxtlar maşınların 2-3 saata ancaq gedib çıxdıqları Ordubad rayonunun Gəmiqaya bölgəsinə qədər, düşmənlə üz-üzə dayanan postlarımıza qədər yollar geniş, abad şəkildə qurulub, asfaltlanıb.

Bir vaxtlar insanlarda belə bir düşüncə var idi ki, kənd yolu elə tozlu-torpaqlı, zığlı-palçıqlı olar. Amma indiki zamanda kəndlərimizin gözəlliklərindən biri də kəndlərə



müasir yolların çəkilməsi, asfaltlanması, kənd insanının gündəlik istifadə etdiyi yol infrastrukturunun qurulmasıdır.

İndi ən ucqar kəndlərimizə – Sədərək rayonunun Qaraağac kəndinə, Şərur rayonunun Şahbulaq kəndinə, Şahbuz rayonunun Şada kəndinə, Kəngərli rayonunun Çalxanqala kəndinə, Babək rayonunun Gərməçataq kəndinə, Culfa rayonunun Boyəhməd kəndinə, Ordubad rayonunun Parağa kəndinə və bu cür onlarla kəndimizə asfaltlanmış rahat və geniş yollar çəkilib, bir neçə rayonda bir neçə kəndi birləşdirən dairəvi yollar salınıb. Bütün bunların hamısının qayəsində insanların rahatlığını təmin etmək, sosial problemlərinin həllinə çalışmaq dayanır.

İndi yollara baxdıqca doymaq olmur, getdikcə yorulmursan. Elə ona görə də bir vaxt vardı, heç nə yoxdu, – deyib keçmişi dərin bir köks ötürməklə xatırlayırıqsa, indi, çox şükür, hər şey var, – deyib, qürurla dilə gətiririk. O vaxtkı yollarla indiki yolları müqayisə edəndə nağıllar aləmində yaşadığını hiss edirsən. İndiki yollar adama nağıl kimi gəlir...

* * *

Sözlərimi yenicə bitirmişdim ki, yuxunun ağırlığına tab gətirməyib yorğun düşən, gözlərini bərk-bərk yuman oğlum astadan və pıçıltıyla dedi:

– Nə yaxşı ki, mənim məktəbə getdiyim yollar dümdüz, tərtəmiz, səliqəli və asfalt yollardır.

**Elxan YURDOĞLU**

*Milli dəyərlərimiz içərisində özünəməxsus yer tutan Azərbaycan xalçaları xalqımızın tarix və şöhrət salnaməsinə pozulmaz izlərini yazıb, köklü bir məktəb yaradıb. Məmləkətimizin müxtəlif regionlarında toxunan bir-birindən gözəl xalçalar dünyanın müxtəlif ölkələrini gəzib. Bu sırada Naxçıvan xalçaçılıq məktəbinin öndə getməsi də faktdır və bununla hər bir naxçıvanlının qürur hissi keçirməyə böyük mənavi haqqı var. Çünki Azərbaycan xalça sənətinin ənənəvi naxışlar və elementlər, özünəməxsus rəng çalarları ilə zənginləşdirilməsində Naxçıvan xalçaçılıq məktəbi mühüm rol oynayıb.*

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Ənənəni qoruyaq, evdə xalça toxuyaq



Naxçıvan xalçaçılıq məktəbi özünəməxsus inkişaf mərhələsi keçib. Bu günümüzə qədər qorunub saxlanılan xalça nümunələri belə deməyə əsas verir ki, bu qədim diyarda xalça toxunuşunda daha çox butalardan, rəmzi çeşnilərdən istifadə edilib. Xalçatoxuma növlərindən şaquli istiqamətli zolaqlarla bəzədilmiş xovsuz xalçaların əsas istehsal mərkəzi tarixən Ordubad olub. Əsasən, ipək liflərdən toxunan bu xalçalar ağ, yaşıl, qırmızı, sarı, mavi və sair rəngli zolaqların növbələşməsi ilə bəzədilib, zəriflik baxımından qumaş təsəvvürü yaradıb. Muxtar respublikada toxunan xalça nümunələri həm də mürəkkəb dolama texnikasına, rənginə, bədii xüsusiyyətlərinə görə digər xalçaçılıq məktəblərinin məhsullarından seçilib.

Naxçıvan xalçaçılıq məktəbinin bərpa edilməsi, tədqiqi və təbliği üçün 1998-ci ildə Naxçıvan Dövlət Xalça Muzeyi yaradılıb. Xalçaçılığın elmi əsaslarla inkişafını diqqətdə saxlayan, evlərdə olan xalça nümunələrinin muzeyə təhvil verilməsi istiqamətində xeyli iş görən muzeyin iş şəraitinin yaxşılaşdırılması məqsədilə 2010-cu ildə bu mədəniyyət müəssisəsi yeni bina ilə təmin olunub.

Naxçıvan xalçaçılıq sənətinin öyrənilməsi və təbliği sahəsində digər tədbirlər də həyata keçirilib. Belə ki, Naxçıvan Qızlar Liseyində "Tikiş, toxuculuq və xalçaçılıq" dərnəyi yaradılıb, "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasında xalça toxunması təşkil olunub. Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçılıq üzrə peşə kursları açılıb. Məlumat üçün bildirək ki, bu mərkəzdə hər biri iki aylıq olmaqla bir neçə dəfə kurslar təşkil edilib. Kursları 50-dək məzun bitirib.

Ötən il Naxçıvan Dövlət Xalça Muzeyinin yenidənqurmadan sonra "Naxçıvan xalçaçıları" kitabının, "Azərbaycan xalçaları: Naxçıvan qrupu" jurnalının, "Naxçıvan xalçaları" sənədli filminin və muzeyin **www.xalca.nakhchivan.az.** saytının təqdimat mərasimi keçirilib. Bu, milli dəyərlərimizin daşıyıcısı olan xalçaçılığın gələcəyinə ümidləri daha da artırıb.

Bu günlərdə eşitdiyimiz bir xəbərdən sonra bu istiqamətdə həyata keçirilən tədbirlərin dinamik xarakter aldığı qənaətinə gəldik. 18 dekabr 2013-cü il tarixdə qəbul edilən "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda əmək bazarının tələbinə müvafiq olaraq, işaxtaranların peşə hazırlığının təşkili üzrə həyata keçirilməsi nəzərdə tutulan işlər sırasında milli və xalq tətbiqi sənət növlərinin öyrənilməsi, milli ənənələrimizin yaşadılması istiqamətində reallaşdırılacaq tədbirlər də vardır. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı sosial əhəmiyyətli haqqıödənilən ictimai işin təşkil edilməsi o deməkdir ki, gələcəkdə muxtar respublikada xalça istehsalı sahəsi ilə məşğul olan sahibkarların yetişməsi şəksizdir. Bu tədbir eyni zamanda işaxtaran vətəndaşların məşğulluğunun təmin edilməsi, onların maddi-rifah halının yaxşılaşdırılması istiqamətində növbəti addımdır.

Nazirlik tərəfindən "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı sosial əhəmiyyətli tədbiri həyata keçirmək üçün Şahbuz rayonunda 5, Şərurda 3, Kəngərlidə 2, Culfada 1, Ordubadda 1, Babəkdə 1 ailəyə xalça toxumaq üçün bütün avadanlıqlar verilib. Onların bir neçəsi ilə görüşmək qərarına gəldik. İlk üz tutduğumuz ünvan Kəngərli rayonunun Yurdçu kəndi oldu. Xalçaçı Bahar Səfərova dövlətimizin bu sahəyə və xalçaçılığa maraq göstərən insanlara qayğısını yüksək qiymətləndirdi, belə qayğıya görə xeyli razılıq etdi. Bildirdi ki, bu sənəti anasından öyrənib, bu sahə ilə məşğul olub. 10-dan çox xalça toxuyub. Övladlarının hamısının evində Bahar Səfərovanın toxuduğu xalçalar ən qiymətli sərvət kimi qorunur. Bahar xanım onu da bildirdi ki, hazırda qardaşı qızları Münəvvərə və Aynura da bu sənəti öyrədir.

Şərur rayonunun Tənənəm kəndində isə 3 ailə bu qayğıdan bəhrələnib. Güllər və Nazilə Salmanova bacıları bir vaxtlar analarının xalça toxuduqları hananı indiyədək qoruyub saxlayıblar. Onlarla söhbət zamanı dedilər ki, köhnə hana bir qədər ağırdır. Odur ki, son vaxtlar ondan istifadə etmirdilər. Bu evdə bir daha xalça sənətinə böyük bağlılığın şahidi olduq. Yerə döşənmiş, divardan asılmış xalça və kilimlərin hamısı vaxtilə Salmanovlar ailəsinin üzvləri tərəfindən toxunub. Xalçalardakı ilmələrə baxdıqca baxmaq istəyirsən. Ailə başçısı Əli Salmanov bildirdi ki, hər xalçanın toxunması üçün onlara 1 kiloqram əriş, yarım kiloqram arğac, 2 kiloqram yun ip verilib. Digər avadanlıqlarla da təchiz olunublar. Hazırda toxuduqları xalçanın eni 80, uzunluğu isə 120 santimetrdir. Xalça toxunuşu başa çatdıqdan sonra bu iş üçün xalçaçılara əməkhaqqı da veriləcək.

Onların qonşusu Məlahət Həsənova üçün də yeni hana ilə işləməyin heç bir çətinliyi yoxdur. Çünki bu ailədə indiyə qədər köhnə hana üzərində 20 xalça toxunub. Deməli, adət-ənənə yaşadılıb, bu gün də dövlətimizin qayğısı hesabına yaşadılmaqdadır.

Əslən Şahbuz rayonunun Keçili kəndindən olan Sabirə Zamanova Naxçıvan Regional Peşə Tədris Mərkəzində kurs bitirib. Onun üçün yeni hanalarda işləmək heç bir problem yaratmır. Babək rayonunun Qahab kəndində yaşayan Sabirə xanım bu sənəti qızı Sumayəyə də öyrədir.

Ordubad şəhərində yaşayan Aynur Kərimova bildirdi ki, 4 uşaq anasıdır. Heç bir yerdə işləmir. İndi sevinir ki, evinin içində özünə iş tapıb. Buna görə də dərin minnətdarlığını bildirən Aynur xanım ilk günlər bu işə alışa bilmədiyini dilə gətirdi. İndi müstəqil surətdə xalça toxuduğunu vurğuladı. Öhdəsinə götürdüyü işi Novruz bayramınadək təhvil verəcəyini qeyd etdi.

*Culfa rayonunun Ləkətağ kənd sakini Səməngül Quliyeva, Şahbuz rayonunun Aşağı Qışlaq kənd sakini Natəvan Zeyniyeva, Kolanı kənd sakinləri Əzizə Quliyeva, Adilə Namazova, Bəsti Əhmədova, Mətanət Məmmədova da dövlətimizin bu qayğısından bəhrələniblər. Onlar bu qiymətli sənətin sirlərini öz yaxınlarına da öyrədirlər. Çalışırlar ki, onlara göstərilən qayğıya əməli işlə cavab versinlər, xalçaçılıq sənətini yaşadaraq gələcək nəsillərə ərməğan etsinlər.*

✍ **Muxtar MƏMMƏDOV**

## "Muxtariyyət ili" ilə əlaqədar ədəbi-bədii gecə

***Naxçıvan şəhər 7 nömrəli uşaq bağçasında "Muxtariyyət ili" ilə əlaqədar ədəbi-bədii gecə keçirilmişdir.***

Məktəbəqədər müəssisənin kiçikyaşlı sakinlərinin, tərbiyəçilərin, valideynlərin iştirak etdiyi tədbirdə bağçanın müdiri Şəbnəm Həmzəyeva çıxış edərək bildirmişdir ki, dövlətimiz uşaqların sağlam, firavan böyüməsinə, gələcəklərinin tam təmin olunmasına xüsusi diqqət və qayğı göstərir. Bu gün biz uşaqlarımızın gələcəyi naminə atılan hər bir addımda dövlətimizin yanında olmalı, ona dəstək verməliyik. Tədbirin keçirilməsində də əsas məqsəd balacalarda doğma torpağa, el-obaya məhəbbət hissləri aşılamaq, onlarda vətənpərvərlik duyğularını gücləndirmək, incəsənətə maraq oyatmaqdır.

Valideyn Aynurə Abbasova "Muxtariyyət ili"ndə bu qəbildən keçirilən tədbirlərin uşaqların inkişafı baxımından böyük əhəmiyyətə malik olduğunu bildirmiş, uşaqların məktəbəqədər təhsilinin ən yüksək səviyyədə inkişafının muxtar respublika sakinləri tərəfindən minnətdarlıqla qarşılandığını qeyd etmişdir.

Uşaqların ifasında doğma Naxçıvana, onun bənzərsiz gözəlliklərinə, qədim tarixinə həsr olunmuş mahnılar səsləndirilmiş, Azərbaycanın Dövlət atributları haqqında şeirlər bədii qiraət edilmişdir. Milli rəqslərimizin uşaqlar tərəfindən özünəməxsus tərzdə ifası tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanmışdır. Vətən haqqında uşaqlar tərəfindən göstərilən səhnəciklər də tamaşaçıların böyük marağına səbəb olmuşdur.

Sonda tədbir iştirakçıları "Muxtariyyət – 90" başlığı altında təşkil edilmiş sərgiyə baxmışlar.

**Xəbərlər şöbəsi**

## Şahmatçılarımız öz bacarıqlarını sınayıblar

Bu günlərdə Naxçıvan şəhərindəki Şahmat Mərkəzində muxtar respublikamızın yaranmasının 90 illiyi ilə əlaqədar 16 yaşadək məktəblilər arasında şahmat üzrə muxtar respublika birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkilatçılığı ilə keçirilən yarışa 100-dən artıq idmançı qatılıb. İki qrupda 7 turdan ibarət olan birincilikdə idmançılar İsveçrə sistemi ilə yarışıblar. Birincilikdə oğlanlar və qızlar arasında Naxçıvan şəhər şahmatçıları Bəxtiyar İsmayılov, Sadiq Məmmədov, Pərviz Qasımov, Toğrul Əliyev, Fatimə İsmayılova, Ordubad rayon idmançısı Seyid Hüseyn və Babək rayon təmsilçisi Aynur Kətənova qalib olublar. Fəxri yerləri tutan şahmatçılar diplomlarla təltif ediliblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


## Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi

*aşağıdakı obyektlərin tikintisi üzrə təkliflər sorğusu elan edir*

*1. Naxçıvan şəhərinin Qaraçuq kəndində 630 şagird yerlik məktəbin yenidən qurulması*

*2. Şərur rayon Püsyan kəndində 630 şagird yerlik məktəbin yenidən qurulması*

*3. Şərur rayon Dizə kəndində 198 şagird yerlik məktəbin yenidən qurulması*

*4. Şərur rayonundakı Kürkənddə 216 şagird yerlik məktəbin yenidən qurulması*

*5. Şərur rayon Axura kəndində 198 şagird yerlik məktəbin yenidən qurulması*

*6. Şahbuz şəhərində 234 şagird yerlik 2 nömrəli məktəbin tikintisi*

*7. Şahbuz şəhərində 220 yerlik uşaq bağçasının tikintisi*

*8. Kəngərli rayon Qarabağlar kəndində 468 şagird yerlik məktəbin yenidən qurulması*

*9. Şahbuz rayon Nursu kəndində 192 şagird yerlik məktəbin yenidən qurulması*

*10. Babək rayon Nehrəm kəndində 738 şagird yerlik məktəbin yenidən qurulması*

*11. Babək rayon Naxışnərgiz kəndində 234 şagird yerlik məktəbin tikintisi*

*12. Ordubad şəhərində 774 şagird yerlik 1 nömrəli məktəbin tikintisi*

*13. Culfa rayon Bənəniyar kəndində 612 şagird yerlik məktəbin yenidən qurulması.*

**Təkliflər sorğusunun əsas şərtləri:**

*-görüləcək işlərin minimum dəyəri və qısa vaxt əsas meyardır;*

*-iddiaçının analoji işlərdə təcrübəsi, işin təşkili (kadr potensialı və tikinti texnikası haqqında məlumat) və onların maliyyə vəziyyəti əsas götürülür;*

*-iddiaçılar sorğuda iştirak etmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin aşağıda qeyd olunmuş hesabına 100 manat məbləğində iştirak haqqı keçirməlidirlər.*

**Bank rekvizitləri:**

*Kapital Bank Naxçıvan Muxtar Respublikası Baş İdarəsi*

*Bank kodu: 200015*

*VÖEN: 9900003611*

*Müxbir hesab: AZ 37 NABZ 01350100000000001944*

*SWİT BİK: AIIBAZ2X*

**Komitənin rekvizitləri:**

*Hesablaşma hesabı: AZ 84 AII B 33040019443100257500*

*VÖEN: 0200005051*

İddiaçılar sorğuda iştirak etmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən müvafiq sənədləri 16 fevral 2014-cü il tarixədək ala bilərlər (Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 42).

Təkliflər sorğusu sənədlərinə aşağıdakı ardıcıllıqla göstərilən tarixlərdə baxılacaqdır:

*1. Naxçıvan şəhərinin Qaraçuq kəndində 630 şagird yerlik məktəbin yenidən qurulması, 25 fevral 2014-cü il, saat $12^{00}$*

*2. Şərur rayon Püsyan kəndində 630 şagird yerlik məktəbin yenidən qurulması, 26 fevral 2014-cü il, saat $12^{00}$*

*3. Şərur rayon Dizə kəndində 198 şagird yerlik məktəbin yenidən qurulması, 26 fevral 2014-cü il, saat $14^{00}$*

*4. Şərur rayonundakı Kürkənddə 216 şagird yerlik məktəbin yenidən qurulması, 27 fevral 2014-cü il, saat $12^{00}$*

*5. Şərur rayon Axura kəndində 198 şagird yerlik məktəbin yenidən qurulması, 27 fevral 2014-cü il, saat $14^{00}$*

*6. Şahbuz şəhərində 234 şagird yerlik 2 nömrəli məktəbin tikintisi, 28 fevral 2014-cü il, saat $12^{00}$*

*7. Şahbuz şəhərində 220 yerlik uşaq bağçasının tikintisi, 28 fevral 2014-cü il, saat $14^{00}$*

*8. Kəngərli rayon Qarabağlar kəndində 468 şagird yerlik məktəbin yenidən qurulması, 3 mart 2014-cü il, saat $12^{00}$*

*9. Şahbuz rayon Nursu kəndində 192 şagird yerlik məktəbin yenidən qurulması, 3 mart 2014-cü il, saat $14^{00}$*

*10. Babək rayon Nehrəm kəndində 738 şagird yerlik məktəbin yenidən qurulması, 4 mart 2014-cü il, saat $12^{00}$*

*11. Babək rayon Naxışnərgiz kəndində 234 şagird yerlik məktəbin tikintisi, 4 mart 2014-cü il, saat $14^{00}$*

*12. Ordubad şəhərində 774 şagird yerlik 1 nömrəli məktəbin tikintisi, 5 mart 2014-cü il, saat $12^{00}$*

*13. Culfa rayon Bənəniyar kəndində 612 şagird yerlik məktəbin yenidən qurulması, 5 mart 2014-cü il, saat $14^{00}$.*

Təkliflər sorğusu ilə əlaqədar məlumat almaq üçün maraqlı olan təşkilatlar Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə müraciət edə bilərlər.

***Əlaqə telefonu: 545-47-34***



***İtmişdir***

Naxçıvan şəhəri, İ.Ələkbərov küçəsi, $19^{A}$ ünvanında yaşamış Əhmədov Əhmədalı Səfəralı oğlunun adına olan 1066 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


***Allah rəhmət eləsin***

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin kollektivi iş yoldaşları Hafizə Mirzəyevaya, əzizi **İBRAHİM İSMAYILOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Hüseyn Məmmədyarov və şöbənin əməkdaşları iş yoldaşları Məhərrəm Bağırova, anası **SƏHNƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tarqulu İsmayılov və Nahidə Əliyeva ailə üzvləri ilə birlikdə **QONÇA BAĞIROVANIN VƏ ABBAS XƏLİLOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumların ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Muxtar Məmmədov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 172